

*“Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır”.*

**Heydər Əliyev**

# XIZI

Qəzet 1990-cı ildən çıxır.
№ 2-3 (192-193) 316-317
Fevral-mart 2024-cü il

Təsisçi: Xızı Rayon İcra Hakimiyyəti


# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi keçirilib

**Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, andiçmə mərasimində birinci xanım Mehriban Əliyeva, dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları iştirak ediblər.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.

Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının Dövlət Bayrağını və Azərbaycan Respublikası Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək dedi:



- Hörmətli xanımlar və cənablar.

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2024-cü il 13 fevral tarixli qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə and içməyə dəvət olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:

- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Sonra Prezident müqəddəs “Qurani-Şərif”ə əl basaraq and içdi:

- Əlimi “Qurani-Şərif”ə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Prezident İlham Əliyev təzim edərək, Azərbaycan Respublikasının Dövlət Bayrağını öpdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söylədi.

# Şəhidlərin xatirəsinə ehtiram



***Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın müqəddəs və ziyarət yeri olan Şəhidlər xiyabanını ziyarət ediblər.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edərək, “Əbədi məşəl” abidəsinin önünə gül dəstələri qoydular.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paytaxt Bakının mənzərəsini seyr etdilər.

Sonra xatirə şəkli çəkdirildi.

# Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət



***Fevralın 14-də andiçmə mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gəlib müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad ediblər.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Ulu Öndərin məzarı önünə gül dəstələri qoydular. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etdilər və üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarının üstünə də gül dəstələri düzüldü.

# Azərbaycan - Qazaxıstan münasibətləri yüksək inkişaf mərhələsindədir







**Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən regionun türk dövlətləri ilə münasibətlərinin inkişafı olduqca böyük əhəmiyyət kəsb edir.**

Son illər ərzində Prezident İlham Əliyevin bu ölkələrə, region dövlətlərinin başçılarının isə Azərbaycana səfərlərinin müntəzəm xarakter daşıması bunun bariz nümunəsidir. Təbiidir ki, belə olan halda ölkələrarası əlaqələrin sürətli və dinamik inkişafı, yeni əməkdaşlıq imkanlarının yaranması üçün əlverişli şərait yaranır. Azərbaycanın sıx, tarixi əlaqələrə malik olduğu türk dövlətlərindən biri də Qazaxıstandır.

Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik əlaqələr 1992-ci il avqustun 30-da qurulub. 1993-cü ilin yanvarında Qazaxıstanın Azərbaycanda, 2004-cü ilin martında isə Azərbaycanın bu ölkədə səfirlikləri fəaliyyətə başlayıb. 2008-ci ilin sentyabrında Azərbaycanın Qazaxıstanın Aktau şəhərində baş konsulluğu açılıb.

Azərbaycanla Qazaxıstan arasında əməkdaşlıq ikitərəfli formatla yanaşı, çoxtərəfli səviyyədə də, xüsusilə Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində uğurla davam etdirilir. Hər iki ölkə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq sahələrinin genişləndirilməsində və inkişaf etdirilməsində maraqlıdır.

Azərbaycan üçün Qazaxıstan qardaş ölkə və strateji tərəfdaşdır. Ölkələrimiz arasında dostluq münasibətlərinin dinamikasını dövlət başçılarının qarşılıqlı səfərlərinin xronologiyasında açıq-aydın görmək mümkündür. Belə ki, son ilyarım ərzində Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana dörd dəfə səfər etmiş, həmçinin bu dövrdə Qazaxıstan Prezidenti üç dəfə respublikamızda səfərdə olmuşdur.

Dövlət başçılarının sıx münasibətləri Azərbaycanla Qazaxıstan arasında əlaqələrə mühüm töhfə verir, ikitərəfli əməkdaşlığın yüksələn xətlə inkişafına və daha da güclənməsinə xidmət edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana son səfəri 2023-cü il noyabrın 2-də olub. Dövlətimizin başçısı Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə iştirak edib. Qazaxıstan Respublikasının Prezidenti Kasım-JomartTokayev isə ötən il noyabrın 24-də Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə işgüzar səfərdə olub.

11 mart 2024-cü il tarixində Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin növbəti dəfə Azərbaycana rəsmi səfərə gəlməsi xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin yüksələn xətt üzrə inkişafından xəbər verir.

Bildiyimiz kimi, Azərbaycanın işğaldan azad edilmiş Füzuli şəhərində Qazaxıstan hökuməti tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi tikilib. Qazaxıstanın dövlət başçısının təşəbbüsü ilə atılan bu humanist addım həm Azərbaycan Prezidenti, həm də Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

Dövlət başçıları martın 12-də keçmiş məcburi köçkün uşaqların təhsil alacağı, həmçinin bu dostluğumuzun və qardaşlığımızın mərkəzi olacaq Füzuli şəhərindəki Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər. Qazaxıstan Prezidenti Kasım-JomartTokayev bu mərkəzin ölkələrimizin və xalqlarımızın dostluğunun, qardaşlığının, qarşılıqlı dəstəyinin daha bir simvoluna çevriləcəyini bildirib. Azərbaycan Prezidenti İlham Əliyev bunu Qazaxıstanın Azərbaycana qardaş köməyi və hədiyyəsi, eləcə də işğaldan azad edilmiş ərazilərimizin bərpasına dəstəyi kimi dəyərləndirib.

Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-JomartTokayev Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimində iştirak ediblər. Mərasim çərçivəsində "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının 1-ci iclasının Qərarı", "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə "Damu" Sahibkarlığın İnkişafı Fondu" Səhmdar Cəmiyyəti arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Qazaxıstan Respublikasının Prezidenti yanında "Mərkəzi Kommunikasiyalar Xidməti" Respublika Dövlət Müəssisəsi arasında əməkdaşlığa dair Memorandum", "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında Qazaxıstan neftinin alqı-satqısı sahəsində strateji əməkdaşlıq haqqında Memorandum", "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında Qazaxıstan neftinin Azərbaycan Respublikası ərazisindən tranzit edilən həcmlərinin mərhələli artırılması haqqında Saziş", Azərbaycan İnvestisiya Holdinqi və "SamrukKazyna" Səhmdar Cəmiyyəti arasında strateji tərəfdaşlıq Sazişi", "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya Nazirliyi arasında 2024-2025-ci illər üçün Tədbirlər Planı", "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Qazaxıstan Respublikasının Rəqəmsal İnkişaf, İnnovasiyalar və Aerokosmik Sənaye Nazirliyi arasında kosmosun dinc məqsədlərlə tədqiq edilməsi və istifadəsi sahəsində Anlaşma Memorandumu", "3 aprel 2017-ci il tarixli Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Sazişə dəyişikliklər edilməsi haqqında Protokol", "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Nəqliyyat Nazirliyi arasında dəniz gəmilərinin heyətinin ixtisas diplomlarının qarşılıqlı tanınması haqqında Saziş" kimi vacib sənədlər imzalanıb.

Azərbaycanla Qazaxıstan arasında əlaqələr bütün sahələrlə yanaşı, enerji sektorunda da uğurla inkişaf edir. SOCAR ilə "KazMunayGaz" arasında ötən il imzalanan yol xəritəsi əlaqələrin genişləndirilməsi üçün geniş imkanlar yaradıb. Qarşılıqlı səmərəli əməkdaşlıq, neftin emalı, tranziti, ticari-iqtisadi münasibətlər Azərbaycanın sürətli inkişafına təkan verərək onu regional enerji mərkəzinə çevirib.

***"XIZI"***



# Xızı sakinləri İlham Əliyevin yenidən prezident seçilməsini böyük sevinc və coşqu ilə qarşılayıblar

Fevralın 7-də Azərbaycanda keçirilən Prezident seçkilərinin "exit poll" nəticələri elan edildikdən dərhal sonra Xızı rayonunun sakinləri qalib xalqın qalib lideri, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin səs çoxluğu ilə yenidən prezident seçilməsini böyük sevinc və coşqu hissi ilə qarşılayıblar. Xızı şəhərində böyük izdiham yaşanıb. Xalqımız üçün xüsusi əhəmiyyət daşıyan bu əlamətdar hadisədən ruhlanan sakinlər öz sevinclərini avtoyürüş keçirməklə bildiriblər. Şəhərin mərkəzi küçəsində Azərbaycanın dövlət bayraqları ilə hərəkət edən avtomobillərdən ardı-arası kəsilməyən siqnal sədaları ətrafa yayılıb. Sakinlər bu xoş mənzərəni qürur və heyranlıq hissi ilə seyr ediblər.

***"XIZI", R.M.***
*7 fevral 2024-cü il*

# Xızı rayonunda Xocalı faciəsinin qurbanları yad edildi

*"Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edərkən onların qarşısında hər birimiz vicdan və vətəndaşlıq borcu düşünürük."*

***HEYDƏR ƏLİYEV,***
***Ümummilli Lider***



İnsanlıq tarixinin ən faciəli səhifələrindən biri olan Xocalı soyqırımından artıq 32 il ötür. Xocalı faciəsi ermənilər tərəfindən nəinki azərbaycanlılara, hətta bütün bəşəriyyətə qarşı vəhşiliklə törədilmiş qanlı aksiya idi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə azğınlaşmış erməni quldurları keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının, eləcə də muzdlu qatillərin köməyilə Xocalı şəhərinə hücüm edərək yerlə yeksan etdilər, hətta uşaqlara, qocalara, qadınlara belə rəhm etmədən əliyalın, günahsız , dinc insanları xüsusi amansızlıqla qətlə yetirdilər. 613 nəfər öldürüldü, 1275 nəfər əsir götürüldü, 487 nəfər şikəst oldu, 8 ailənin tamamilə kökü kəsildi. Şəhid olanların 63-ü uşaq, 106-sı qadın, 70-i isə qocalar idi. O cümlədən, 26 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi.

Erməni daşnaklarının bu qəddarlığını Azərbaycan xalqı heç zaman unutmur və Xocalı faciəsi qurbanlarının xatirəsi dərin ehtiramla yad edilir.

Xocalı faciəsinin 32-ci ildönümü ilə əlaqədar Xızı rayonunda silsilə tədbirlər keçirilib. Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi altında ictimaiyyət nümayəndələri - Xızı RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, hüquq-mühafizə orqanlarının, idarə, təşkilat və müəssisələrin rəhbərləri və əməkdaşları, mədəniyyət, təhsil, səhiyyə işçiləri, şəhid ailələri, qazilər, ağsaqqallar, ziyalılar fevralın 26-da Xızı şəhərindəki "Şəhidlər Xiyabanı" xatirə kompleksini ziyarət edərək önünə tər qırmızı qərənfillər düzüblər. Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin və Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.




Xocalı faciəsinin 32-ci ildönümü ilə əlaqədar keçirilmiş tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov çıxış edib.

Öz çıxışında Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Xocalı faciəsinə bir soyqırım kimi hüquqi-siyasi qiymət verildiyini, bu vəhşiliyin əsl mahiyyətinin açıqlanaraq törədilmiş cinayətlər barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırıldığını bildirən Xəzər Aslanov daha sonra bu soyqırım aktının bütün Azərbaycan xalqının faciəsi olduğunu, bu faciənin tariximizin qan yaddaşına çevrildiyini və heç zaman yaddaşlardan silinməyəcəyini diqqətə çatdırıb.

Qeyd edək ki, fevralın 26-da Xocalı soyqırımı ilə əlaqədar Xızı rayonu ərazisində Azərbaycanın dövlət bayraqları endirilib.

***"XIZI", R.M.***
***26 fevral 2024-cü il***



# "Xocalı faciəsi xalqımızın qan yaddaşıdır" mövzusunda tədbir keçirilib



*"XX əsrin sonunda təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri baş verdi. Xocalı faciəsi öz ağırlığına görə bəşəriyyətə qarşı törədilmiş cinayətlər arasında xüsusi yer tutur."*

***İLHAM ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



Xızıda Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar "Xocalı faciəsi xalqımızın qan yaddaşıdır" mövzusunda tədbir keçirilib. Fevralın 23-də Heydər Əliyev Mərkəzinin konfrans zalında Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, YAP Xızı rayon təşkilatının fəallarının, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyinin əməkdaşlarının, eləcə də R.İsmayılov adına Xızı şəhər tam orta məktəbinin müəllim və şagirdlərinin iştirakı ilə keçirilmiş tədbirdə, əvvəlcə, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin ölməz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Xızı Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov Xocalı soyqırımının xalqımıza qarşı ən qəddar niyyətlərlə həyata keçirilən terror aktı və ermənilərin Azərbaycanın dövlətçiliyini, ərazi bütövlüyünü hədəfə almış məqsədli irtica siyasətinin qanlı səhifəsi kimi bəşəriyyətin əleyhinə yönəlmiş genişmiqyaslı cinayət olduğunu vurğulayıb. O bildirib ki, bu qanlı faciənin törədilməsində məqsəd bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan strateji əhəmiyyətli maneəni aradan qaldırmaq idisə, digər tərəfdən, ümumiyyətlə, Xocalını yer üzündən birdəfəlik silmək idi. Xocalı elə bir yaşayış məskəni idi ki, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Dağlıq Qarabağ bölgəsinin inzibati sərhədləri daxilində, Ağdam-Şuşa-Xankəndi-Əskəran yolunun üzərində və regionun yeganə hava limanının yaxınlığında yerləşən Xocalı şəhəri nəqliyyat-kommunikasiya baxımdan xüsusi əhəmiyyətə malik idi.




Daha sonra xalqımıza qarşı törədilmiş qəddar və qeyri-insani vəhşilik aktı -Xocalı soyqırımı haqqında geniş çıxışlar dinlənilib.

Sonda R.İsmayılov adına Xızı şəhər tam orta məktəbin şagirdlərinin ifasında ədəbi-bədii kompozisiyalar nümayiş olunub.

***"XIZI", R.M.***
***23 fevral 2024-cü il***



# YAP Xızı rayon təşkilatının yaradılmasından 31 il ötür



Yeni Azərbaycan Partiyası Xızı rayon təşkilatının yaradılmasından 31 il ötür. Bu münasibətlə Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, Xızı RİHBA-nın rəsmiləri, eləcə də ərazi partiya təşkilatlarının sədrləri, partiya fəalları, ictimaiyyət nümayəndələri fevralın 27-də Ümummilli Lider Heydər Əliyevin Xızı şəhərindəki abidəsini ziyarət edərək önünə tər gül dəstələri düzüblər. Yeni Azərbaycan Partiyasının banisi, Ulu Öndər Heydər Əliyevin nurlu xatirəsi böyük ehtiramla yad edilib.

*"XIZI", R.M.*
*27 fevral 2024-cü il*

# Xızı Rayon İcra Hakimiyyətinin başçısı sakinlərlə səyyar görüş-qəbullar keçirir

**Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov 2024-cü ilin mart ayı üçün təsdiq olunmuş qrafikə əsasən, martın 1-də Giləzi qəsəbəsində, martın 7-də Tıxlı kəndində, martın 13-də Sitalçay kəndində və martın 15-də Şorabad qəsəbəsində sakinlərlə səyyar görüş-qəbullar keçirib.**

Yerlərdə vətəndaşlarla keçirilən səyyar görüş-qəbullarda Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovla yanaşı Xızı rayon prokuroru Xəyalə Aslanova, Milli Məclisin deputatı Müşfiq Məmmədli, Xızı RİHB-nın müavini Arzu Əzizov, Xızı RİHBA-nın digər məsul şəxsləri, eləcə də müvafiq idarə, təşkilat və müəssisələrin rəhbərləri iştirak ediblər. Rayon rəhbəri vətəndaşların müraciətlərini diqqətlə dinlədikdən sonra, onları narahat edən problemlərlə yaxından tanış olub, problemlərin həlli istiqamətində hər bir təklif və şikayətlə bağlı müvafiq qurumların rəhbər şəxslərinə konkret tapşırıqlar verib.

*"XIZI", R.M.*


Giləzi qəsəbəsi


Giləzi qəsəbəsi


Tıxlı kəndi


Tıxlı kəndi


Sitalçay kəndi


Sitalçay kəndi


Şorabad kəndi


Şorabad kəndi

# "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı sahiblərinə təqdim edilib







Müasir müstəqil Azərbaycan dövlətinin banisi, dünya şöhrətli dahi siyasətçi, qüdrətli dövlət xadimi, bütün dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Ulu Öndərin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi işinin daha da gücləndirilməsi və Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı ölkənin siyasi, mədəni, elmi, ictimai həyatında müstəsna rola malik bir sıra şəxslər "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunmuşdur. Təltifolunma mərasimləri respublikamızın bütün regionlarını əhatə etmişdir.

Bu münasibətlə martın 14-də Xızı Rayon İcra Hakimiyyətinin konfrans zalında təşkil olunmuş tədbirdə uzun müddət Xızı rayonuna rəhbərlik etməklə onun inkişafında, abadlaşdırılmasında, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm xidmətləri olan Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, eləcə də YAP Xızı rayon təşkilatının sabiq sədri, Xızı rayon Suvarma Sistemləri İdarəsinin rəisi Fərrux Haqverdiyev və Xızı rayon Ağsaqqallar Şurasının sədri, əməkdar müəllim Arif Nağıyev "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunublar.

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov mərasimdə çıxış edərək ölkə rəhbərliyi tərəfindən təltif edilməyin böyük mənəvi və siyasi əhəmiyyətinin olduğunu vurğulayıb. Ulu Öndər Heydər Əliyevin adına olan bu medalı daşımağın məsuliyyətindən bəhs edən Xəzər Aslanov Prezident İlham Əliyevə öz minnətdarlığını bildirib və qeyd edib ki, göstərilən bu etimad onun üzərinə həm də çox böyük məsuliyyət qoyur. Bu, bütövlükdə Xızı rayonuna verilən dəyərdir.

Yubiley medalı ilə digər təltif olunanlar da çıxışlarında göstərdiyi yüksək diqqətə görə dövlət başçısına öz təşəkkürlərini bildiriblər.

Çıxışlardan sonra Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalını sahiblərinə təqdim edib.

*"XIZI", R.M.*
*14 mart 2024-cü il*

# Heydər Əliyev Parkında ağacəkmə aksiyası keçirilib





Martın 14-də Xızı şəhərindəki Heydər Əliyev Parkında ağacəkmə aksiyası keçirilib. Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli 4233 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın icrası istiqamətində təşkil edilmiş aksiyada Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, Xızı RİHBA-nın işçiləri, eləcə də rayonda fəaliyyət göstərən idarə, təşkilat və müəssisələrin əməkdaşları iştirak etmişlər.

Ağacəkmə aksiyasının keçirilməsində əsas məqsəd Azərbaycanda ətraf mühitin, meşə zolaqlarının qorunması və mühafizəsini hər zaman diqqətdə saxlamaq, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə olan qayğı hissini təbliğ etmək olmuşdur.

Alınan məlumata görə, 80 nəfərin iştirakı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilmiş aksiyada 400 ədəd həmişəyaşıl tuya və sərv ağacları əkilmişdir. Yeni əkilmiş tinglərə aqrotexniki qulluq göstərilmiş və suvarılmışdır.

*"XIZI", R.M.*
*14 mart 2024-cü il*

# "31 Mart - Azərbaycanlıların Soyqırımı Günü"nə həsr olunmuş tədbir keçirilib





**Azərbaycan tarixinə bir çox şanlı səhifələrlə yanaşı, faciələr, müsibətlər və soyqırımlarla dolu qanlı səhifələr də yazılıb. 1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində ən dəhşətli faciələrdən biridir. Erməni daşnaklar qoca, uşaq, qadın bilmədən on minlərlə azərbaycanlını qətlə yetiriblər, qılıncdan, süngüdən keçiriblər, diri-diri yandırıblar.**

Bu qanlı faciəyə əsl hüquqi qiymət Ulu Öndər Heydər Əliyev tərəfindən verildi.

Məhz Ümummilli Lider Heydər Əliyev 1998-ci il martın 26-da "1918-ci il mart soyqırımı haqqında" Fərman imzalayıb. Fərmanda bu hadisələrlə bağlı Milli Məclisin sessiyalarının keçirilməsi, bu sahədə tədqiqat işlərinin aparılması, hər il mart ayının 31-nin Azərbaycanlıların Soyqırımı günü kimi qeyd edilməsi, bu faciənin dünya ictimaiyyətinə çatdırılması kimi konkret vəzifələr qoyulub. Bununla da Azərbaycan tarixində erməni məsələsinə münasibətdə yeni strategiya müəyyənləşib. Həmin ildən etibarən bütün xalqımız bu tarixi "31 Mart - Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd edir.

Martın 29-da Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhid R.İsmayılov adına Xızı şəhər tam orta məktəbində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar dəyirmi masa keçirilib. Tədbirdə Xızı RİHBA-nın, Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin Xızı rayon Gənclər və İdman sektorunun nümayəndələri, məktəb rəhbərliyi, müəllimlər və yuxarı sinif şagirdləri iştirak ediblər.

Mövzu ətrafındakı çıxışlarda qeyd edilib ki, ermənilərin müxtəlif dövrlərdə fərqli formalarda həyata keçirdikləri kütləvi qətllər əvvəlcədən düşünülüb və planlaşdırılıb. Məqsəd azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, həmin ərazilərdə erməni tarixçilərinin uydurduğu "Böyük Ermənistan" dövləti yaratmaq idi. Məhz bu siyasətin nəticəsi olaraq ermənilərin Azərbaycana qarşı uzun illər boyu apardığı ardıcıl soyqırımı, etnik təmizləmə nəticəsində minlərlə insan məhv edilib, evindən-obasından didərgin salınıb. 1918-ci il mart ayının son günlərində ermənilər Azərbaycanda ümumilikdə əlli minə yaxın insanı xüsusi amansızlıqla qətlə yetiriblər. Bu qətliamlar eynilə Bakı, Şamaxı, Quba, Qarabağ, Naxçıvan, Zəngəzur və digər ərazilərdə də həyata keçirilib. Erməni quldur dəstələri insanlara qarşı vəhşiliklər etməklə kifayətlənməyərək, bu torpaqlarda tarixi, mədəniyyət abidələrini də vəhşicəsinə dağıdıb, məscidləri yandırıb, memarlıq incisi sayılan binaları yerlə-yeksan ediblər.

Çıxış edənlər soyqırımın yaranma səbəbləri barədə ətraflı məlumat veriblər.

Sonda sənədli film nümayiş etdirilib.

*"XIZI", R.M.*
*29 mart 2024-cü il*

# Xızıda Novruz bayramı qeyd olundu

*"Novruz bayramı insanlarda həmişə xoş əhval-ruhiyyə yaradır, vətənpərvərlik hisslərini daha da möhkəmləndirir və hər bir insanı vətəninə, millətinə, ölkəsinə, doğma dövlətinə daha da sadiq olmağa dəvət edir. Ona görə də bu bayram Azərbaycanın dövlət müstəqilliyinin və azadlığının rəmzidir".*

*Heydər Əliyev,*
*Ümummilli Lider*

*"... Novruz bayramı bizim milli dəyərimizdir, sərvətimizdir".*

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*

**Novruz xalqımızın mədəniyyətini, adət-ənənələrini, milli mənəvi dəyərlərini özündə əks etdirən, dünyaya tanıtdıran qədim el bayramıdır. Milli birliyimizin təcəssümü olan Novruz bayramı insanlarda böyük ruh yüksəkliyi, əməyə, torpağa sevgi hissi oyadır.**














Milli-mənəvi varlığımızın, ulularımızın həyat tərzinin, məişətinin, mədəniyyətinin zənginliyini incəliklərinə qədər nümayiş etdirən Novruz bayramının tarixin süzgəcindən keçmiş adət və ənənələrinə hörmət və məhəbbət bəslənilir.

Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə ehtiva edən böyük mədəniyyət hadisəsidir. Novruzun tərkibi quruluşca mürəkkəb, məzmunca dərin, geniş və əhatəlidir. Müasir dövrümüz üçün bu bir milli bayramdır. Bu bayrama tarixi inkişaf boyunca baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğunu görürük. Keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda, digər türk dövlətlərində və bir çox qonşu ölkələrdə Novruz Bahar bayramı kimi qeyd olunmaqdadır.

Novruz bayramı öz gəlişi ilə evlərə, ailələrə, el-obaya şənlik, busat, şadlıq gətirir. Xalqımızın əziz bayramı olan Novruzun təşrifi Azərbaycanda min illərdən bəri təntənəli, hay-haraylı, çal-çağırlı el şənlikləri ilə müşayiət olunur, xüsusi təşkil olunmuş xalq mərasimləri ilə həyata keçirilir.

Martın 19-da Xızı Rayon İcra Hakimiyyətinin dəstəyi və Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayonu üzrə nümayəndəliyinin təşkilatçılığı ilə Novruz bayramı münasibətilə Heydər Əliyev Mərkəzində təşkil olunmuş böyük coşqu ilə qatılıb. Milli bayram təntənəsinin hökm sürdüyü tədbirdə Xızı Rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Əzizov, YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, Xızı rayon prokuroru Xəyalə Aslanova və digər rəsmi şəxslər də iştirak ediblər.

Xızı rayon Uşaq Musiqi Məktəbinin müəllimlərindən ibarət "Xızı dağları" ansamblının müşayiətilə müğənnilərin ifa etdikləri bayram əhval-ruhiyyəli mahnılar, məktəblilərin nümayişində Novruzu tərənnüm edən ədəbi-bədii kompozisiyalar, "Çərşənbə nəğmələri" və "Bənövşə" tamaşaları alqışlarla qarşılanıb.

Bahar qızı, Kosa və Keçəlin gəlişi tədbirə rəngarəng gözəllik qatıb. Onların ifasında məzəli söhbətlər, duzlu zarafatlar, şən oyunlar, məzhəkəli hərəkətlər xızılıların ürəyincə olub.

Göz oxşayan səməni və xonçalarla, milli şirniyyatlarla bəzədilmiş bayram süfrələrindən, qədim eksponat və tarixi məişət əşyalarından, tətbiqi sənət nümunələrindən ibarət olan sərgilər bayram tədbirinə marağı birə-beş artırıb.

Xızıda bayram tonqalı yandırılıb, Novruz adət-ənələrini əks etdirən oyunlar nümayiş olunub.

*"XIZI", R.M.*
*19 mart 2024-cü il*

# Xızıda 8 Mart - Beynəlxalq Qadınlar Günü qeyd olunub

*"Azərbaycan qadını milli -mənəvi dəyərlərimizin qorunub saxlanmasında və nəsildən-nəslə çatdırılmasında daim fədakarlıqlar göstərmiş, xalqımızın hazırkı mədəni simasının müəyyənləşməsində müstəsna rol oynamışdır."*

*İLHAM ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*






Xızı rayon Mərkəzi Kitabxanasında 8 Mart - Beynəlxalq Qadınlar Günü ilə əlaqədar tədbir keçirilib. Martın 7-də Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinə tabeli Xızı rayon Mərkəzi Kitabxanasının və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı (MİHİ) Xızı rayon Komitəsinin təşkilatçılığı ilə keçirilmiş tədbirdə çıxış edənlər 8 Mart - Beynəlxalq Qadınlar Gününün yaranma tarixinə nəzər salıblar, onun mahiyyətindən və əhəmiyyətindən danışıblar. Bildirilib ki, dünyanın əksər ölkələrində hər il mart ayının 8-də qeyd olunan və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınan Beynəlxalq Qadınlar Günü qadınların iqtisadi, ictimai və siyasi mübarizəsini, eləcə də ümumi olaraq qadınlara qarşı sevgi, məhəbbət və nəzakət tərənnümünü ənənəvi hala gətirmiş bir bayramdır. Bu bayramın ölkəmizdə də dəyəri böyükdür.

Qeyd olunub ki, dinc və sağlam nəsillər yetişdirməyi qarşısına məqsəd qoyan Azərbaycan qadınları dünən olduğu kimi bu gün də, gələcəkdə də ölkəmizdə xoşbəxt cəmiyyətin qurulmasında və formalaşmasında böyük təsirə və müstəsna rola malik olacaqlar.

Çıxışlarda bütün qadınlara xoş təbriklər ünvanlanıb və fəaliyyətlərində uğurlar arzulanıb.

Tədbirdə iştirak edən qadınlara MİHİ Xızı rayon Komitəsi tərəfindən hazırlanan hədiyyələr təqdim olunub.

*"XIZI", R.M.*
*07 mart 2024-cü il*



*Xızı rayonunun ictimaiyyəti müqəddəs Novruz bayramı münasibətilə bütün Azərbaycan xalqını təbrik edir, əvəzsiz nemət olan can sağlığı, bol-bol ruzi bərəkət, firavanlıq, fərəh dolu xoş günlər, əmin-amanlıq, sevincli həyat arzulayır.*

# Xızı Rayon İcra Hakimiyyəti başçısının 2024-cü ilin aprel ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| Sıra № | Rayon | Səyyar görüş-qəbulun keçiriləcəyi yaşayış məntəqəsi | Səyyar görüş-qəbulun keçiriləcəyi yer | Səyyar görüş-qəbulun tarixi | Səyyar görüş-qəbulun keçiriləcəyi saat |
|---|---|---|---|---|---|
| 1 | Xızı | Xızı şəhəri | Xızı şəhər tam orta məktəbin binası | 15.04.2024 | 11:00 |
| 2 | | Fındığan kəndi | Fındığan kənd İƏD üzrə nümayəndəliyin inzibati binası | 17.04.2024 | 11:00 |
| 3 | | Altıağac qəsəbəsi | Altıağac qəsəbə tam orta məktəbin binası | 18.04.2024 | 11:00 |
| 4 | | Baxşılı kəndi | Baxşılı kənd İƏD üzrə nümayəndəliyin inzibati binası | 19.04.2024 | 11:00 |

# Xızı Rayon İcra Hakimiyyəti başçısının 2024-cü ilin may ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| Sıra № | Rayon | Səyyar görüş-qəbulun keçiriləcəyi yaşayış məntəqəsi | Səyyar görüş-qəbulun keçiriləcəyi yer | Səyyar görüş-qəbulun tarixi | Səyyar görüş-qəbulun keçiriləcəyi saat |
|---|---|---|---|---|---|
| 1 | Xızı | Türkoba kəndi | Türkoba kənd tibb məntəqəsi | 03.05.2024 | 11:00 |
| 2 | | Yeni Yaşma kəndi | Yeni Yaşma kənd tam orta məktəbin binası | 08.05.2024 | 11:00 |
| 3 | | Qarabulaq kəndi | Qarabulaq kənd İƏD üzrə nümayəndəliyin inzibati binası | 15.05.2024 | 11:00 |
| 4 | | Xələnc kəndi | Xələnc kənd ümumi orta məktəbin binası | 17.05.2024 | 11:00 |

# Xızı Rayon Prokurorluğunun 2024-cü ilin aprel-iyun ayları ərzində vətəndaşların yaşayış yerləri üzrə qəbuluna dair

# QRAFİKİ

| Sıra №-si | Vətəndaşların qəbulu keçirilən ərazi | Qəbulun keçirilmə vaxtı | | Vətəndaşları qəbul edən məsul şəxs | |
|---|---|---|---|---|---|
| 1. | Xızı RİHB-nın Fındığan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 23.04.2024-cü il | 11:00 - 13:00 | Xızı rayon prokuroru | Xəyalə Aslanova |
| 2. | Xızı RİHB-nın Sitalçay kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 20.05.2024-cü il | 11:00 - 13:00 | Xızı rayon prokuroru | Xəyalə Aslanova |
| 3. | Xızı RİHB-nın Xələnc kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 11.06.2024-cü il | 11:00 - 13:00 | Xızı rayon prokuroru | Xəyalə Aslanova |

# Mədəniyyət xəbərləri

## Sabaha boylanan düha

### Cəfər Cabbarlı - 125



**Xızı rayonunda Heydər Əliyev Mərkəzinin, C.Cabbarlı adına Mədəniyyət Mərkəzinin, Mərkəzi Kitabxananın birgə təşkilatçılığı ilə görkəmli ədib və dramaturq Cəfər Cabbarlının anadan olmasının 125 illiyi ilə əlaqədar "Sabaha boylanan düha" mövzusunda tədbir keçirilib.**



Martın 29-da təşkil edilmiş tədbirdə Xızı rayonunun mədəniyyət işçiləri iştirak ediblər.

Tədbirdə Xızıda dünyaya göz açmış görkəmli dramaturq Cəfər Cabbarlının həyat və yaradıcılığı barədə ətraflı məlumat verilib. Bildirilib ki, Cəfər Cabbarlının zəngin və bənzərsiz ədəbi irsi, işıqlı və məzmunlu sənətkar həyatı, mübariz və nurlu şəxsiyyəti dövrlər bir-birini əvəzlədikcə ədəbi tənqidin, oxucu və tamaşaçı izdihamının daim diqqət mərkəzində durmuş və yaddaşlarda zərif və silinməz izlər qoymuşdur. O, uşaq yaşlarından insanların ağır vəziyyətini, cəmiyyətin yoxsullara və varlılara bölündüyünü görmüş, acınacaqlı və



məşəqqətli həyat içərisində yaşayan insanları müşahidə etmiş, ayrı-ayrı ailələrin ağır vəziyyəti onu çox düşündürmüş və bütün bunları qələmə almağa, onlara öz münasibətini bildirməyə çalışmışdır.

Çıxışlarda Cəfər Cabbarlının XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair, yazıçı, dramaturq, ssenarist, tərcüməçi, publisist, teatrşünas kimi çoxcəhətli fəaliyyəti ilə ədəbiyyatımızın, mədəniyyətimizin və incəsənətimizin inkişaf və təşəkkül tarixində silinməz iz qoyan böyük təfəkkür sahibi və qüdrətli sənətkar olduğu bildirilib.

Görkəmli sənətkar Cəfər Cabbarlının həyat və yaradıcılığını əks etdirən "Sabaha boylanan düha" adlı sərgi ilə yaxından tanış olan tədbir iştirakçıları Xızı şəhərində dahi dramaturqun adını əbədiləşdirən parka gələrək abidəsini, daha sonra ev muzeyini ziyarət ediblər.

***"XIZI", R.M.***
***29 mart 2024-cü il***

## "Xocalı faciəsi - bəşəriyyət tarixinin ən dəhşətli səhifəsi" mövzusunda tədbir keçirilib

**"Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir."**



Bu fikirlər Xızı rayonunda mədəniyyət işçilərinin iştirakı ilə "Xocalı faciəsi- bəşəriyyət tarixinin ən dəhşətli səhifəsi" mövzusunda keçirilən tədbirdə səslənmişdir.



Xızı rayonunda Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinə tabeli Heydər Əliyev Mərkəzinin, C.Cabbarlı adına Mədəniyyət Mərkəzinin və Mərkəzi Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə fevralın 26-da Xocalı faciəsinin 32-ci ildönümünə həsr olunmuş "Xocalı faciəsi- bəşəriyyət tarixinin ən dəhşətli səhifəsi" adlı anım tədbiri keçirilib. Heydər Əliyev Mərkəzinin konfrans zalında təşkil olunmuş tədbirdə rayonda fəaliyyət göstərən mədəniyyət müəssisələrinin rəhbərləri və əməkdaşları iştirak ediblər. Əvvəlcə, Xocalı soyqırımı qurbanlarının və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edənlər Xocalı faciəsi haqqında tarixi faktlardan, xalqımıza qarşı planlaşdırılmış şəkildə törədilmiş soyqırımdan və bu soyqırıma verilən siyasi-hüquqi qiymətdən danışıblar.

Çıxışçılar Xocalı soyqırımının nəinki Azərbaycan tarixinə, ümumiyyətlə bəşəriyyət tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olduğunu, qəddarlığı və qeyri-insani cəza üsulları ilə insanlığa qarşı törədilmiş vəhşilik aktı olduğunu bildiriblər.

Sonda "Donmuş fotolar" adlı sənədli film nümayiş etdirilib.

***"XIZI", R.M.***
***26 fevral 2024-cü il***

## "Novruz çiçəkləri" Xızıda

**Milli-mənəvi dəyərlərimizi, qədim adət-ənənələrimizi özündə ehtiva edən Novruzun gəlişi münasibətilə martın 15-də Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində "Novruz çiçəkləri" adlı bayram tədbiri keçirilib.**





Tədbirdə mədəniyyət işçiləri ilə yanaşı məktəblilər də iştirak ediblər.

Çıxışlarda qeyd olunub ki, milli adət-ənənələrimizin ayrılmaz parçası olan Novruz bayramı Azərbaycan xalqının çoxçalarlı incəsənətinin aynası olmaqla, milli mədəniyyətimizdə sülh, əmin-amanlıq və tolerantlıq kimi ümumbəşəri dəyərlərə sadiqliyinin tarixi təcəssümüdür.

Natiqlər tədbir iştirakçılarına Novruz bayramı münasibətilə təbriklər ünvanlayıb, onlara bol-bol ruzi-bərəkət, ailələrinə mehribanlıq, xoşbəxtlik, işlərində müvəffəqiyyətlər arzulayıblar.

Tədbir musiqili ədəbi-bədii kompozisiyalarla davam etdirilib. Şeirlər söylənilib, mahnılar oxunub. Bahar qızının, Kosanın, Keçəlin tədbirə gəlişi böyük sevinc və maraqla qarşılanıb. Onların məzəli rəqsləri, məzhəkəli hərəkətləri alqışlarla qarşılanıb.

***"XIZI", R.M.***
***15 mart 2024-cü il***


Baş redaktor:
**Rafael Məmmədov**
Tel: (050) 965-88-89;
(050) 547-65-39;
(070) 831-95-96
*Whatsapp:* (050) 965-88-89;
(070) 831-95-96
*Elektron ünvan: xizi.r.m@mail.ru*



*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.*
*VÖEN: 7800023401*
*H/h:*
*33080019442400230124*

Qəzet “Bəxtiyar - 4 İKF” mətbəəsində çap edilib.

Qəzetdə gedən yazılara görə müəlliflər özləri məsuliyyət daşıyırlar.

*Tiraj: 600*
*Sifariş: 831*

*Ünvan: Xızı şəhəri, Vüsaqi küçəsi - 28*